UOT 372.2

***Laləzar Kazım qızı Cəfərova***
*ARTİ-nin məktəbəqədər təhsilin kurikulumu*
*şöbəsinin müdiri*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN MƏZMUNU VƏ TƏKMİLLƏSDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Лалезар Казым гызы Джафарова***
*заведующий отделом*
*курикулума дошкольного образования Института Образования*
*доктор философии по педагогике, доцент*

# СОДЕРЖАНИЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ

***Lalazar Kazym Jafarova***
*associate Professor*
*Head of the Department of Curriculum of Preschool Education*
*of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of Philosophy in Pedagogy,*

# CONTENTS AND DIRECTIONS OF DEVELOPMENT OF PRESCHOOL EDUCATION

**Xülasə:** Məktəbəqədər müəssisələrdə pedaqoji işin dəyişdirilməsi üzrə fəaliyyətin başlıca istiqaməti proqram-metodik təminatla bağlıdır. Tərbiyəçi-müəllimin didaktik prosesin təkmilləşdirilməsinə yönəlmiş yenilikçi fəaliyyəti məktəbəqədər təhsil müəssisələrində vahid innovativ sistemin tərkib hissəsidir və onun inkişafetdirici potensialının həyata keçirilməsi yolu ilə təlim və tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsinə kömək edən məqsəd, məzmun, forma və metodlarında dəyişikliklər təklif edir.

***Açar söz:*** *Məktəbəqədər təhsil, məzmun, məktəbəhazırlıq, yeniliklər, tərbiyəçi və valideynlər*

**Резюме:** Важное направление деятельности по изменению педагогической работы дошкольного учреждения связано с программно-методическим обеспечением. Инновационная деятельность педагога-воспитателя, направленная на совершенствование дидактического процесса является компонентом целостной инновационной системой в дошкольных учреждениях и предлагает изменения в целях, условиях содержании, формах и методах обучения и воспитания, способствующие повышению качества учебно-воспитательного процесса посредством целенаправленной реализации его развивающего потенциала

***Ключевые слова:*** *дошкольное образование, содержание, подготовка к школе, инновация, воспитатели и родители*

**Summary:** An important area of activity to change the pedagogical work of preschool institutions is associated with program and methodological support. Innovative activities of the teacher-educator, aimed at improving didactic process is an integral component of the innovation system in preschool and propose changes to the conditions under which, forms and methods of training and education to improve the quality of the educational process through targeted implementation of its developmental potential.

***Key word:*** *Preschool education, content, Preparation for school, innovation, teacher and parents*

Hər bir səviyyədə təhsil quruculuğu ilkin olaraq həmin səviyyənin məzmunundan başlanır. Təhsilin məzmununa bütövlükdə təhsil prosesinin əsası kimi baxılır. Ona görə də təhsilin

məzmununun həll olunmasına ciddi sosial tələblər qoyulur. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təhsilin məzmununa xüsusi yer ayrılır. "Təhsilalanların fasiləsiz təhsil almasını daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömrü boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək" və "yuksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığı formalaşdırmaq" (1) - təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər kimi təsbit olunur. Bu tələblərin öhdəsindən uğurla gəlmək üçün məktəbəqədər təhsil müəssisələrində uşaqlara nəyi və necə öyrətmək lazımdır? Məktəbəqədər yaşlı uşaqların inkişaf səviyyəsi, xarakteri onların həyata, əməyə hazırlığı məhz təhsilin məzmunundan asılıdır.

Məktəbəqədər təhsil sisteminin inkişafı Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biridir. Məktəbəqədər təhsilə dövlət səviyyəsində əhəmiyyətli dərəcədə diqqət ayrılır. Cəmiyyətdə, iqtisadiyyatda, ölkənin siyasi həyatında innovativ proseslərin güclü inkişaf etdiyi indiki zamanda məktəbəqədər yaşlıların kreativ şəxsiyyət kimi formalaşmasına və inkişafına tələbat artır. 2017-ci ildə qəbul edilmiş "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycanda məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsillə təmin olunması sahəsində dövlət siyasətinin prinsiplərini, məktəbəqədər təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanunda "Məktəbəqədər təhsilin məqsədi və məzmunu" üzrə maddə 7.1.-də Məktəbəqədər təhsilin Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin ilk pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsi olduğu göstərilir və qeyd edilir ki, "Məktəbəqədər təhsil vasitəsilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnməsinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətinin, zəruri həyati bacarıqlara yiyələnməsinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur". (2).

Kreativliyin inkişafı özlüyündə şəxsiyyətin inkişafının mərkəzi xəttini təşkil edir ki, bu da insana fərdiliyini və unikallığını göstərməyə imkan verir. Yeni pedaqoji texnologiyalar, təlim metodları uşağın intellektual, yaradıcı inkişafına, məntiqi və tənqidi təfəkkürünün formalaşmasına, təhliletmə, ümumiləşdirmə aparma, əqli nəticə çıxarma bacarığı və vərdişlərinin yaranmasına kömək edir. Müasir dövrdə öyrənməyi öyrətmək texnologiyası əsasında qurulan təlim, uşağın təfəkkürünü maksimum dərəcədə inkişaf etdirir. Bu gün dünyada baş verən sürətli texnoloji inkişaf, dəyişikliklər savadlı, yaradıcı və yüksək intellektə malik gənclərin hazırlanması zərurətini irəli sürür. Şəxsiyyətin formalaşmasının təməli məlum olduğu kimi məktəbəqədər yaş dövründən qoyulur.

Uşağın məktəbə getməsi onun həyatında böyük hadisədir. Bu baxımdan uşaqların məktəb həyatına tam hazır olmaları tərbiyəçi-müəllim və valideynlərin qarşısında duran mühüm vəzifələrdəndir.

Uşağın məktəbə hazırlanması uzun sürən bir prosesdir. Uşaq bağçasında kiçik qruplardan başlayaraq təlim-tərbiyə üzrə iş düşünülmüş şəkildə aparılır və artıq məktəbəhazırlıq qruplarında daha da mükəmməlləşdirilir. Bu yaşda uşaqların məktəbə hazırlığı onların məktəbdə asanlıqla təhsil ala bilmələri üçün əlverişli şərait yaradır.

Adətən, məktəbəqədər təlim dedikdə, ilkin bilik və bacarıqların verilməsi prosesi başa düşülür. Bu dövrdə uşaqların intellektinin inkişafı, təlimin mənimsənilməsi üçün zəruri olan diqqət, qavrayış, hafizə, təfəkkür və s. kimi psixi proseslərin inkişaf səviyyəsini nəzərdə tutur. Bilik və bacarıqlar məqsəd deyil, şəxsiyyətin mükəmməl inkişafında bir vasitə hesab olunur. Təəssüf ki, hələ də tətbiq edilən "məktəb modeli"ni xatırladan model məktəbəqədər yaş dövründə məqsədəmüvafiq deyil. Burada bilik və bacarıqları təlim etmək əvəzinə, uşaqların biliklərə yiyələnmək və həyatda tətbiq etmək yollarını öyrətmək lazımdır. Adətən, ətraf aləmin dərk olunmasında tətbiq edilən texniki, elmi və mədəni nailiyyətləri, onlara yiyələnmənin vasitə və yollarını yaşlılar uşaqlara ötürürlər. Uşaqlığın ilk illərində bu cəhətdən əsaslı bünövrə

qoyulmadan, gələcək inkişafını təmin etmək mümkün deyildir.

Uşaq məktəbə hazırlaşarkən lazımi biliklərə yiyələnmə prosesində müəyyən çətinliklərlə qarşılaşır. Bu illər ərzində uşaq gəzməyi, danışmağı, başqaları ilə ünsiyyətə girməyi, fikirləşməyi, gücünə müvafiq problemi həll etməyi öyrənir. Əgər bu idrak prosesləri səhv təşkil olunarsa, məktəbdə daha ciddi çətinliklər qarşıya çıxacaq. Uşaq məktəbə gedənədək tərbiyəçi-müəllimlərin və valideynlərin diqqəti onun təlimi və inkişafına yönəldilərsə, ibtidai siniflərdə müvəffəqiyyətlə təlim alma şansı yüksələr. Buna nail olmaq üçün tərbiyəçi-müəllimlər və valideynlər uşaqların ümumi inkişafına daim diqqət yetirməli, onları düzgün istiqamətləndirməlidirlər.

Uşaqların intellektinin inkişafı onların gələcək məktəb həyatına hazırlanmalarında çox böyük əhəmiyyət kəsb edir. Son 10 illikdə respublikamızda məktəbəqədər təhsil sistemində əsaslı dəyişikliklər baş vermişdir. Bir tərəfdən artıq məktəbəqədər təhsil standartları tətbiq olunur, digər tərəfdən ənənəvi bilikyönlü sistemdən imtina edilir.

Hazırda məktəbəqədər təhsilin icbariliyi gündəmdədir. Məktəbəqədər təhsil standartları müəyyənləşdirilmişdir. Təlim zamanı dövlətin tələbi kimi həmin standartlar əsas götürülür. Onu da qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil standartları məktəb standartları deyil. Görkəmli rus psixoloqu L.S. Vıqotskinin belə bir məşhur tezisi var ki, özü ilə inkişafı aparan təlim daha yaxşıdır. Bəs məktəbəqədər müəssisələrdə uşaqlar ilk növbədə nə əldə etməlidirlər? Psixoloji nöqteyi-nəzərdən bu suala belə cavab vermək olar: ünsiyyət. Məktəbəqədər müəssisələrdə psixi inkişaf qanunlarına əsasən böyüklər və yoldaşları ilə ünsiyyət saxlamağı, ünsiyyət prosesində müxtəlif rol və mövqeni mənimsəməyi, qarşılıqlı əməkdaşlıq etməyi, birgə fəaliyyət üzrə kollektiv təcrübəyə yiyələnməyi bacarmalıdırlar. Bütün bunlar artıq uşağın fərdi fəaliyyəti əsasında qurulur və fəaliyyətin kollektiv formasında nailiyyətlər əldə etməyə imkan verir.

Aparılan pedaqoji və psixoloji tədqiqatlardan, araşdırmalardan belə nəticəyə gəlmək mümkündür ki, uşaqların maraq dairəsinin, hər şeyi öyrənmək həvəsinin geniş olması onların daha çox informasiya toplamalarına, səbəb-nəticə əlaqələri qurmalarına, ümumiləşdirmələr aparmalarına imkan yaradır.

Məktəbəqədər təhsilin kurikulumunda yeni dövlət standartlarına əsasən məktəbəqədər təhsil müəssisələrində məşğələlərin məzmununun müəyyənləşdirilməsi uşaqların meyl, maraq, arzu və bacarıqlarına istiqamətlənib. Uşaq fəaliyyətinin belə motivləşdirilməsi daha nəticəli olmaqla, hər bir uşağın bu və ya digər bacarığının inkişafına imkan verir.

Təhsil sistemi yenidən qurularkən həmişə müəyyən çətinliklər qarşıya çıxır. Bu çətinliklərin dəf edilməsi prosesində tərbiyəçi-müəllimlərin öz sosial missiyalarının əhəmiyyətini anlamaları çox mühümdür. Onlar öz səylərini tərbiyəyə, uşaqların təhsilinə, onların psixoloji müdafiəsinə yönəltməlidir.

Tərbiyəçi-müəllimlə uşağın gündəlik sərbəst ünsiyyəti prosesində inkişafetdirici vəzifələrin realizəsi xüsusi məşğələlərlə uyğunlaşdırılmalıdır. Odur ki, məşğələlərin təşkili rəngarəng olmalıdır. Məşğələlərin fəal təlim əsasında keçirilməsi hər bir uşağın idrak fəallığını təmin edir, əks əlaqəni qurmağa və uşaqların irəliləyişini nəzərə almağa kömək göstərir.

Şəxsiyyətyönlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi-müəllim təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi-müəllim və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçi-müəllimlər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olurlar. Onlar daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilirlər. Onlar uşaqları müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edirlər.

Məktəbəqədər sahəyə aid dövlət standartları təhsil proqramının (kurikulumunun) strukturunu, məzmununu, həcmini və inkişaf sahələrinin uyğunluğunu müəyyənləşdirir. Məktəbəqədər təhsilin məzmunu 4 inkişaf sahəsi üzrə realizə olunur:

fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik;
idrakın inkişafı;
estetik və yaradıcı inkişaf;
sosial-emosional inkişaf. (3)

Bu inkişaf sahələri üzrə məzmun müasir məktəbəqədər təhsil sisteminin konseptual və normativ-hüquqi sənədlərinə uyğundur.

Məktəbəqədər dövrdə uşaq şəxsiyyətinin əsası, onun psixi və şəxsiyyətyönlü inkişafını xarakterizə edən dəyərlər böyüklərlə ünsiyyət birgə fəaliyyət zamanı yaranır. Ənənəvidən fərqli olaraq yeni məzmuna görə şəxsiyyətyönlü təhsil prosesində böyüklərlə qarşılıqlı fəaliyyət prosesində şəxsiyyətin əsas nüvəsini uşağın kommunikativ tələbatı, onun aparıcı motivləri təşkil edir. Odur ki, məktəbəqədər təhsil müəssisələrində çalışan hər bir tərbiyəçi-müəllim uşaqlarla böyüklərin birgə fəaliyyətinin təşkili və uşaq fəaliyyət növlərinin təşkili prosesində təlimedici fəaliyyətin qurulmasının xüsusiyyətlərini bilməlidir.

Məlum olduğu kimi məktəbəqədər yaşlı uşaqların əsas, aparıcı fəaliyyət növü oyundur. Təlim fəaliyyətinə oyun elementlərinin daxil edilməsi məşğələni canlı, maraqlı və yadda qalan edir.

Dövlət standartlarını nəzərə alaraq məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühit elə qurulur ki, hər bir uşağın meyl, maraq, fəallıq səviyyəsi nəzərə alınmaqla fərdiliyinin səmərəli inkişafına imkan versin. Bu məqsədlə ətraf mühitin uşaqların hərəki, idraki və emosional fəallığını stimullaşdıran elementlərlə zənginləşdirilməsi zəruridir.

Beləliklə, müasir dövrün tələbləri, sosial sifarişlər məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsini və təkmilləşdirilməsini tələb edir. Bu istiqamətdə aparılan işlər zamanı məktəbəqədər təhsilin inkişaf taktikası və strategiyası müəyyənləşdirilmiş, uşaqların maraqları və hərtərəfli inkişafının imkanları nəzərə alınmışdır.

**Problemin aktuallığı.** Məktəbəqədər təhsil müəssisələri şəbəkəsində mövcud olan problemlərin aradan qaldırılması, onların səmərəli həlli, ölkəmizdə məktəbəqədər təhsilin günün tələbləri səviyyəsində qurulmasının təmin olunması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi günün vacib məsələlərindən biridir.

**Problemin elmi yeniliyi.** Yeni məzmunun realizəsi, obyektiv və subyektiv şərtlərin əsaslandırılması daxildir.

**Problemin praktik əhəmiyyəti.** Hazırlanmış yeni məzmunun tətbiqi pedaqoji işçilərin innovativ potensialını, peşəkarlığının səviyyəsini artırır ki, bu da məktəbəqədər müəssisələrdə keyfiyyət dəyişikliyini şərtləndirir.

## Ədəbiyyat:


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

2 Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. *16 iyun 2017. http://www.president.az/articles/24248*

3 Məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Bakı: ARTPİ-nin nəşri, 2014.



E- mail: l.cafarova@mail.ru



**Rəyçilər***:* *ped.ü.fəls.dok., dos.* Ş.A. Baxışova,
*ped.ü.fəls.dok.* S.Ə. Rəhimova

**Redaksiyaya daxil olub: 11.05.2018**